# Heydər Əliyev və Səməd Vurğun

***Heydər Əliyev: "Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir"...***

**Aslan Salmanov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: aslan_salmansoy@mail.ru

**Annotasiya.** Məqalədə görkəmli siyasi xadim Heydər Əliyevin "millətimizin başını ucaldan ən böyük şəxsiyyətlərdən biri və iftixar mənbəyi" adlandırdığı, yeni dövr milli poeziyamızın yaradıcılarından olan Səməd Vurğun haqqındakı çoxsaylı çıxışları üzə çıxarılır və öyrənilir.
Heydər Əliyevin Səməd Vurğunun şəxsiyyəti və çoxşaxəli yaradıcılığının bütün parametrlərinə toxunduğu, onun dövrü və zəngin irsini həm siyasi-ideoloji, həm də filoloji aspektlərdən təhlil etdiyi, ustad şairin mühiti və sənəti, ədəbi və ictimai nüfuzu, mədəniyyətimizin və elmimizin inkişafındakı xidmətləri, şəxsiyyətinin bütövlüyü, övladları, eləcə də Vurğun ocağı haqqında orijinal fikirlər söylədiyi üzə çıxarılır.
Şairin irsinin müasir dövrdə–müstəqillik illərində də aktuallığını qoruyub saxlaması, xalqımızın, xüsusilə də gənclərin milli dəyərlər, o sıradan, azərbaycançılıq ruhunda tərbiyəsi istiqamətindəki rolu və əhəmiyyəti bu çıxışların prioritetini təşkil edir. Heydər Əliyev çıxışlarında sənətkar və zaman, başqa sözlə mühit–müəllif–mətn əlaqələrinin də obyektiv şərhini vermiş və son illər bəzi qüvvələr tərəfindən təhrif edilən məqamlara aydınlıq gətirmişdir.
Ümummilli lider Heydər Əliyevin xalqımızın tarixi və taleyində müstəsna xidmətlər göstərmiş Səməd Vurğun haqqındakı fikirləri ustad şairin çox ziddiyyətli və təhlükəli bir dövrdə yaşamasına baxmayaraq, xalqa ləyaqətlə xidmət etdiyini–milli-mənəvi dəyərlərimizi ehtiva edən əsərlər yazdığını, Respublika elminin inkişafına böyük əmək sərf etdiyini, eləcə də əsərlərinin aktuallığını indi də qoruyub saxladığını və dövlətçiliyimizin təməl prinsiplərinin inkişafında onların xüsusi əhəmiyyət kəsb etdiyini təsdiqləmiş olur.
**Açar sözlər:** Heydər Əliyev, Səməd Vurğun, müəllif, mühit, komparativ, bioqrafik, tekstoloji

**Məqalə tarixçəsi:** göndərilib – 14.09.2023; qəbul edilib – 29.09.2023

# Haydar Aliyev and Samad Vurgun

***Heydar Aliyev: "The Azerbaijani people are and will continue to be proud of the works by Samad Vurgun, from beginning to end..."***

**Aslan Salmanov**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: aslan_salmansoy@mail.ru

**Abstract.** The article examines numerous speeches by the outstanding political figure Heydar Aliyev about one of the creators of our new national poetry, Samad Vurghun, called "One of the greatest personalities, a glorious source of pride for our nation". The author cites Heydar Aliyev's

original thoughts about Samed Vurghun, based on all the parameters of personality and multifaceted creativity, analysis of the era and his rich heritage both in the political-ideological and philological aspects, the environment and poetic art of the master, literary and social authority, merits in the development our culture and science, the integrity of his personality, information about children and family. The priority in these speeches is the role and significance of the relevance of the poet's preserved heritage in the modern era - the period of independence, the direction of educating the people, especially the younger generation, in the spirit of national values.
In his speeches, Heydar Aliyev objectively interpretares the topic "artist and time", i.e. on the connections between the environment – the author – the text and provides explanations about some aspects of distortion made by certain forces in recent years. In Heydar Aliyev's thoughts about the invaluable merits of Samad Vurgun in the history and fate of our people, the fact is expressed that, despite the difficult and dangerous years during his life, the master, working tirelessly for the development of the science of the republic, served our people with honor - wrote exceptional importance works that reflect national and spiritual values, and today retain their relevance and contain the supporting principles of the development of statehood.
**Keywords:** Haydar Aliyev, Samad Vurgun, author, environment, comparative, biographic, textological

**Article history:** received – 14.09.2023; accepted − 29.09.2023

## Giriş / *Introduction*

Görkəmli siyasi xadim Heydər Əliyevin Azərbaycanın ilk Xalq şairi və ilk akademiklərindən biri, gözəl dramaturq, səriştəli ədəbiyyatşünas və elm təşkilatçısı, gözəl tərcüməçi, nüfuzlu ictimai xadim və böyük şəxsiyyət Səməd Vurğun haqqında, tarixi 1970-ci illərin ortalarından başlayan çox dəyərli çıxışları var. Çıxışlarında o, nəinki peşəkar siyasətçi, hətta, səriştəli bir ədəbiyyatşünas kimi bu böyük sənətkarın zəngin irsini həm siyasi-ideoloji, həm də filoloji aspektdən təhlil etmiş, dəyərləndirmiş, ustad şairin şəxsiyyəti və yaradıcılığı haqqında orijinal fikirlər söyləmişdir. Bu fikirlər, əsasən, S.Vurğunun ədəbiyyatımız tarixindəki yeri və mövqeyinin, ümumiyyətlə, mədəniyyətimizin və elmimizin inkişafındakı xidmətlərinin, eləcə də şairin irsinə obyektiv yanaşma prinsiplərinin müəyyənləşdirilməsinə, əsərlərinin müasir dövrdə – müstəqillik illərində də aktuallığını qoruyub saxlamasına, xüsusilə də bu zəngin və yaşarı irsin gənclərin milli dəyərlər ruhunda tərbiyəsi sahəsindəki əhəmiyyətini ehtiva edir. Bütövlükdə yanaşdıqda isə Heydər Əliyev S.Vurğunun şəxsiyyəti və yaradıcılığının bütün parametrlərinə toxunmuş, onun dövrü və ədəbi irsi, elmi-ictimai fəaliyyəti, dili, şəxsiyyətinin bütövlüyü və övladları haqqında çox qiymətli fikirlər söyləmişdir.

## Əsas hissə / *Main Part*

Əvvəlcə onu nəzərə çatdıraq ki, Heydər Əliyevin Səməd Vurğun haqqındakı qənaətləri, təkcə şairin əsərlərini və barəsində yazılanları mütaliəsinə deyil, həm də, gənc də olsa, ustad şairin müasiri olduğundan şəxsi müşahidələrinə əsaslanır. Belə ki o, S.Vurğuna xalqımızın hədsiz məhəbbət, hörmət və ehtiram göstərdiyinin şahidi olmuş və özü də zamanının digər gəncləri kimi, onu "sadəcə gördüyündən, eşitdiyindən özünü xoşbəxt" saymış, onun əsərlərini maraqla oxumuş və bu əsərlər, özünün də etiraf etdiyi kimi, onun bir insan kimi formalaşmasında, təhsilində, əxlaqında, mənəviyyatında çox böyük rol oynamışdır. O, S.Vurğunun əsərlərindən bəhrələndiyini, onlardan mənəvi qida aldığını, qürur və fəxarətlə dilə gətirmiş, bu böyük şəxsiyyətin "ümumilikdə o dövrün gəncləri üçün nümunə – xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlilikdə nümunə" olduğunu xatırlatmış,

sonralar özü səlahiyyət sahibi olarkən də şairin ruhuna böyük qədrşünaslıq göstərərək, "onun ədəbi irsinə Azərbaycanda hörmətlə yanaşılması və ondan istifadə edilməsi üçün" daim çalışmışdır.

S.Vurğuna heç bir sənətkara nəsib olmayan sonsuz xalq məhəbbətindən danışan H.Əliyev bu sevginin səbəbini onun yaradıcılığı, vətənpərvərliyi, ictimai nüfuzu, bir sözlə xalqına ləyaqətli xidməti ilə əlaqələndirir. XX əsrdə mədəniyyətimizdə, ədəbiyyatımızda, ictimai-siyasi həyatımızda Səməd Vurğunun xidmətlərinin olduqca böyük olduğunu və ona görə də "xalqımızın onu sağlığında da sevib, ona sitayiş etdiyini" və şairə olan xalq sevgisinin indi də davam etdiyini xatırladır. Əlavə edir ki, "...bu gün müstəqil Azərbaycanda, milli-azadlıq şəraitində, müstəqillik şəraitində Səməd Vurğunun əsərləri bizim hamımız üçün və xüsusən gələcək nəsil üçün, bu günün gənc nəsli üçün böyük bir sərvətdir" [2, s.519].

Məlum olduğu kimi, Azərbaycan və azərbaycançılıq mövzusu S.Vurğun yaradıcılığının əsas–ana xəttini təşkil edir. Onun əsərlərinin baş mövzusu, baş qəhrəmanı, tədqiqatçılarının da təsdiq etdiyi kimi, Azərbaycandır. Qorxmaz Quliyevin qeyd etdiyi kimi, "Yəqin ki, iki sənət əsərinin – Ü.Hacıbəyovun "Koroğlu" operasının uvertürasının...və S.Vurğunun "Azərbaycan" şeirinin hər bir azərbaycanlının ayrı-ayrılıqda və Azərbaycan xalqının bütövlükdə özünütanıması və özünütəsdiqi prosesində əlahiddə rol oynaması faktını heç bir yurddaşımız inkar edə bilməz. 1936-cı ildə çap olunandan (Əslində şeir ilk dəfə 1935-ci ildə işıq üzü görmüşdür ("Kirovabad bolşeviki" q., 7 iyun; "Şairin türküsü" adı ilə – A.Salmansoy) bu günə qədər S.Vurğunun bu əsəri hər bir azərbaycanlıya "mən kiməm?", "mən haradan gəlmişəm, haraya gedirəm?" kimi taleyüklü suallara cavab verməyə mənəvi zəmin yaradır" [4, s.166]. Doğrudan da, məhz, "Azərbaycan" şeirindən sonra azərbaycanlılar üçün Azərbaycan əbədi olaraq Ana Vətəndir" [4, s.172].

Müşahidələr Azərbaycan mövzusunda yazılan bütün poeziya nümunələrinin, o sıradan M.H.Şəhriyarın "Azərbaycan" şeiri və B.Vahabzadənin "Gülüstan" poemasının da, məhz, S.Vurğunun "Azərbaycan" şeirinin təsiri ilə yazıldığını təsdiq edir. Həqiqət naminə bir ədəbi-tarixi fakt da etiraf edilməlidir: "Azərbaycan" adında və mövzusunda nə qədər əsərlər qələmə alınsa da, sözün həqiqi mənasında dillər əzbərinə, "Vətən haqqında poetik himn"ə, dastana, Azərbaycanın "vizit vərəqi"nə, məhz S.Vurğunun "Azərbaycan"ı çevrilmişdir. Səksən ildir ki, azərbaycanlı körpələr "Azərbaycan" şeiri ilə dil açır. "Azərbaycan" deyəndə ya da, məhz S.Vurğunun "Azərbaycan"ı düşür və şeirin müəllifinin adını çəkməyə ehtiyac duyulmur.

"Azərbaycan" şeiri H.Əliyevin taleyində də önəmli əhəmiyyət kəsb etmiş və bu əsərə o da xüsusi önəm vermişdir: "Səməd Vurğunun "Azərbaycan" şeiri dillər əzbəri olubdur... o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib, təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir" [4, s.140]. H.Əliyevin çıxışının sonunda ustad şairin, məhz, "Azərbaycan" şeirini söyləyərkən kövrəlməsi də təsadüfi deyildi.

Əslində, vətən və xalq sevgisi şairin, təkcə bu şeirinin deyil, bütövlükdə yaradıcılığının ana xəttini təşkil edir və bu səbəbdən də S.Vurğunun bütövlükdə poetik irsini Azərbaycan haqqında dastan, nəğmə, ümumilikdə poeziyamızın "Azərbaycannamə"si adlandırmaq olar. S.Vurğuna olan sevgi və ehtiramının təməlində də H.Əliyevin ustad şairin "dərya" adlandırdığı yaradıcılığının, məhz bu keyfiyyətləri – əsərlərinin "Vətənə – Azərbaycana, xalqımızın dilinə, milli ənənələrinə məhəbbətlə dolu olması" dayanır.

Heydər Əliyev çıxışlarında vətənpərvər şairin yaradıcılığının bu keyfiyyətlərini – Səməd Vurğunun öz xalqına, millətinə sadiq insan olduğunu, öz millətinin oyanışına, milli dirçəlişinə xidmət etdiyini diqqətə çatdırır və əlavə edir ki, "Məhz Səməd Vurğunun şeirləri, poemaları, pyesləri, dramları hamısı birlikdə xalqımızı xırda-xırda bu yüksək səviyyəyə çıxarıbdır. Səməd Vurğunun yaradıcılığının əsas xüsusiyyətləri bax, budur. Məhz, buna görə Səməd Vurğun qiymətlidir. Səməd Vurğun bütün yaradıcılığı boyu öz xalqını azad görmək istəyibdir. Səməd Vurğun həmişə azadlıq, müstəqillik tərəfdarı olubdur. Səməd Vurğun Üzeyir Hacıbəyovla, Cəfər Cabbarlı ilə çiyin-çiyinə gedibdir. Onlar – Səməd Vurğun da, Üzeyir Hacıbəyov da, Cəfər Cabbarlı da Azərbaycanı azad, müstəqil, sərbəst görmək istəyiblər.

Biz, bu günümüzə görə, xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik" [3, s.140].

Heydər Əliyev S.Vurğunun dram əsərləri, onların səhnə həlli, aktyor oyunu haqqında da orijinal fikirlər söyləmişdir. Onun "Vaqif" dramı haqqındakı qənaətləri də, zənnimizcə, həm ədəbiyyatşünaslıq, həm də teatrşünaslığımızda yenidir. O, bu dramın S.Vurğunun çoxşaxəli yaradıcılığında "ən görkəmli yer" tutduğunu və onun əsasında hazırlanmış tamaşanın da Azərbaycan teatrını daim inkişaf etdirdiyini, XX əsr ədəbiyyatımızın, mədəniyyətimizin tarixində ən ciddi hadisələrdən biri olduğunu diqqətə çatdırır. Əsərin başlıca məziyyətlərini Azərbaycan xalqının tarixinin böyük bir hissəsini əks etdirməsi və eyni zamanda sadə, ürəyəyatan misralarla dərin fəlsəfi fikirlər ifadə etməsində görür.

Heydər Əliyev "Vaqif" dramına qədər Vaqif kimi görkəmli bir şəxsiyyəti Azərbaycan xalqının tanımadığını da xatırladır və əlavə edir ki, "Vaqifi geniş tanıtmaq, onu xalqa daha da yaxınlaşdırmaq, Vaqifin şəxsiyyətini açmaq, onun surətini xalqa göstərmək və Vaqifi xalqa doğma etmək – bunların hamısını Səməd Vurğun etdi... Bu gün biz Vaqifin şəkillərini, heykəlini görürük. Amma, həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışdır" [3, s.139).

H.Əliyev başqa bir maraqlı məqama da toxunur – 1937-ci ilə – "Vaqif" dramı yazılana qədər Azərbaycanda "Vaqif" adı daşıyan adamın ya olmadığını, ya da az olduğunu xatırladır: "Bəlkə də hamı güman edir ki, Azərbaycanda geniş yayılmış "Vaqif" adı elə dövri-qədimdəndir. Amma, "Vaqif" əsəri meydana çıxandan sonra insanlar Vaqifi, yəni, Səməd Vurğunun yaratdığı Vaqif obrazını o qədər sevdi ki, həddindən çox ailə yeni doğulan övladlarına Vaqif adı verdi...

Görürsünüz, Səməd Vurğun bir əsərlə bizim milli mədəniyyətimizə, ədəbiyyatımıza aid nə qədər böyük məsələləri həll edibdir. Səməd Vurğun xalqımıza nə qədər böyük xidmətlər göstəribdir" [3, s.139].

Heydər Əliyev daha sonra özünün də "S.Vurğunun yolu ilə gedərək", Vaqifin adını əbədiləşdirmək üçün ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə, onun qəbri üzərində böyük bir məqbərə ucaltdırdığını və həmin məqbərədə Səməd Vurğun, Azərbaycan Teatrı və Ələsgər Ələkbərov tərəfindən yaradılmış Vaqif surətinin heykəlini qoydurduğunu xatırladır.

Heydər Əliyevin S.Vurğunun yenidən səhnələşdirilən "Fərhad və Şirin" dramı, onun səhnə həlli haqqındakı fikirləri də böyük maraq doğurur. Tamaşadan sonra aktyorlarla görüşündə əsərdəki psixoloji məqamlara, fəlsəfi fikirlərə, yüksək şeiriyyətə toxunan H.Əliyev tamaşanı hazırlayan kollektivin–rejissorların, tərtibatçıların işini yüksək qiymətləndirir, əsərin məzmununu, ideyasını başa düşmək üçün kollektivin çox böyük məharət, sənətkarlıq nümunəsi göstərdiyini diqqətə çatdırır.

Əsərin səhnə həllini incəliklərinə qədər şərh edən H.Əliyev onun aktuallığı haqqında da orijinal fikirlər söyləyir: "Bu əsər bu gün aktualdır, ona görə ki, ...həm sevgi, məhəbbət saf və pak olmalıdır, həm də xəyanətə, satqınlığa və vəzifəpərəstliyə qarşı mübarizə aparılmalıdır. Əsərdəki Şapur surəti baş vəzir olmaq üçün xəyanətə əl atır. Bütün bunlar yaşadığımız dövr üçün də aktualdır. Bizim dövrümüzdə nə qədər adamlar vəzifə almaq üçün nə qədər xəyanətlər ediblər...Əgər Şapur, təkcə Fərhada və yaxud Şirinə, elə Xosrovun özünə xəyanət edibsə, amma bu gün xəyanət edənlər bütün millətə xain çıxıblar, ölkəmizə, dövlətimizə, dövlətçiliyimizə xəyanət ediblər. Ona görə də Səməd Vurğunun əsəri bu gün də aktualdır, 10 il də, 50 il də bundan sonra aktual olacaqdır. Nə qədər ki, insan cəmiyyəti yaşayır, insanlar arasında gedən bu proseslər daimidir...

Bu əsərin indi səhnəyə gəlməsinin cəmiyyətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün və bizim insanların tərbiyəsi, kamilləşməsi, təkmilləşməsi üçün çox böyük əhəmiyyəti var" [1, s.348].

Heydər Əliyev S.Vurğunun Azərbaycan şeir dilinin saflaşdırılması sahəsindəki xidmətlərini, şeir dilimizə gətirdiyi yenilikləri – onun Azərbaycan klassiklərinin ənənələrini davam etdirərək, müasir şeir dilimizi inkişaf etdirib, daha yüksək səviyyəyə qaldırdığını da layiqincə dəyərləndirir:

"Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir, Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərdən biridir" [3, s.138].

Heydər Əliyev S.Vurğun yaradıcılığının böyüklüyünü və gözəlliyini onun hər kəlməsinin hər bir azərbaycanlının qəlbinə çatmasında, onun beynini fəth etməsində, onu öz təsiri altına salmasında görür.

Heydər Əliyev S.Vurğunun elmi-ictimai fəaliyyətini də diqqətdən kənar qoymur. S.Vurğunu "böyük ictimai-siyasi xadim" adlandıran Ümummilli lider onun gənc yaşlarından Azərbaycanın və o vaxtkı İttifaqın ictimai-siyasi həyatında çox böyük işlər gördüyünü xatırladır. İkinci Dünya müharibəsindən sonra Sülh Uğrunda Mübarizə hərəkatında onun beynəlxalq aləmdəki fəaliyyətinə xüsusi önəm verir və bunların hamısının, eyni zamanda, bizim xalqımızın adını, hörmətini daim ucaltığını diqqətə çatdırır.

S.Vurğun, məlum olduğu kimi, Azərbaycan Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən, təsisçilərindən (1945) və ilk akademiklərindən biri olmuş, daha sonra (1954) Akademiyanın vitse-prezidenti seçilmişdir. Təxminən, on il ərzində o, yorulmadan çalışmış, humanitar elmlərin inkişafında müstəsna xidmətlər göstərmişdir. H.Əliyev onun bu sahədəki xidmətlərini də yüksək qiymətləndirmiş, demişdir ki, "O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycanın Milli Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir. Burada Səməd Vurğunun xidmətləri böyükdür. Ən böyük xoşbəxtlik ondadır ki, Səməd Vurğun ömrünün son illərində həmin Akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir" [3, s.139].

Heydər Əliyev S.Vurğunu yaradıcı olduğu qədər də cəsarətli, qürurlu, bütöv bir şəxsiyyət kimi də yüksək dəyərləndirir, onu öz yaradıcılığı, əsərləri, ictimai-siyasi fəaliyyəti ilə XX əsr Azərbaycan tarixində ən görkəmli şəxsiyyətlərdən biri hesab edir. O, S.Vurğunun şəxsiyyətinin bütövlüyünü, dönməzliyini, cəsarətini diqqətə çatdırmaq üçün şahidi olduğu bir hadisəni – bir çox ziyalılara, o cümlədən S.Vurğuna da təzyiqlər göstərən, məhvinə çalışan M.C.Bağırovun rəhbərliyi ilə 1952-ci ildə Opera və Balet teatrında keçirilən bir iclası xatırladır: "Səməd Vurğuna söz verildi. Onun o çıxışı qulağımda bu günkü kimi səslənir. Səməd Vurğuna söz veriləndə salona toplaşanlar onu çox böyük hərarətlə qarşıladılar. Səməd Vurğun çox dərin məzmunlu və həyəcanlı bir nitq söylədi...Onun o nitqi də, məhz, Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, ziyalılarına aid qayğılarla dolu idi. O vaxt ona iki-üç dəfə replika verdilər, amma, Səməd Vurğun hər dəfə də cavablarını verdi, əyilmədi, sınmadı, iradəsini itirmədi, öz nitqini mərdi-mərdanə, böyük iftixar hissi ilə başa çatdırdı" [3, s.140].

Ulu öndər S.Vurğunun o vaxt hər kəs, o sıradan onun özü üçün də – xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlilikdə bir nümunə olduğunu etiraf edir.

Heydər Əliyevin S.Vurğun şəxsiyyəti və yaradıcılığına olan rəğbəti onun ailəsinə, övladlarına münasibətdə da davam etmişdir. Yusif Səmədoğlunun ədəbiyyatımız və mədəniyyətimiz qarşısındakı xidmətlərini, bir yazıçı kimi özünəməxsusluğunu yüksək dəyərləndirən Ümummilli lider onun Vurğun ocağına mənsubluğunu da xüsusi vurğulayır: "Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki, o, böyük şair, böyük insan, böyük alim Səməd Vurğunun oğludur. Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük bir nemətdir, böyük bir xoşbəxtlikdir. Bəlkə, elə bu, bəs olardı. Ancaq, bununla yanaşı, bu kökün üstündə, bu ailə ab-havasının içində böyüyüb, ərsəyə gəlib atasının yolunu davam etdirmək və cəmiyyətdə özünə məxsus, məhz, özünə məxsus yer tutmaq, bu, böyük xoşbəxtlikdir, cəmiyyətimizin içində insan üçün, şübhəsiz ki, nemətdir" [2, s.519].

Ulu öndər çıxışının davamında Y.Səmədoğlunun ən böyük xüsusiyyəti və dəyərini onun "həm yaradıcılığı, həm ictimai-siyasi fəaliyyəti, həm də ziyalılığı ilə atasının adına layiq övlad" olmasın-

da görür və onun atasının yolunu davam etdirməsini – ədəbi xələfi olmasını qəhrəmanlıq sayır: "...Atasının yolu ilə gedib, atasının ədəbi xələfi olaraq, onun işini davam etdirərək, özünü ədəbiyyata, mədəniyyətə həsr etmək böyük bir şərtdir, deyə bilərəm ki, böyük bir qəhrəmanlıqdır" [2, s.519].

Heydər Əliyev çıxışlarında S.Vurğunun ailəsinin bütün üzvlərinə həmişə hörmət və ehtiramla yanaşdığını dilə gətirib. Bu, Ulu öndərin, bir tərəfdən ustad şairin şəxsiyyəti və yaradıcılığına sevgisindən qaynaqlanıbsa, digər tərəfdən şairin övladlarının özlərinin yaradıcılığı, xalqa xidməti və şəxsiyyətləri ilə bağlı olmuşdur. Ümummilli lider S.Vurğunun şəxsiyyəti və yaradıcılığına, eləcə də ailəsinə olan hörmətinə görə, onun ailəsindən də özünə qarşı həmişə hörmət və ehtiram gördüyünü diqqətə çatdırır, şairin ailəsi ilə görüşlərini özü üçün "ən əziz xatirələrdən" hesab edir və belə əziz xatirələrdən birini, eyni zamanda ibrətamiz bir hadisəni – 1990-cı ildə Moskvadan qayıtdıqdan sonra Naxçıvanda təcrid olunmuş çox ağır şəraitdə yaşadığı vaxt yanına, gözləmədiyi halda Aybəniz Vurğunqızının gəldiyini xatırladır. Əvvəlcə Aybəniz xanımın kiminləsə işi olduğundan Naxçıvana gəldiyini güman edən Ümummilli liderə sonradan məlum olur ki, o, yalnız Ulu öndəri "görüb, salam vermək üçün" gəlib. H.Əliyevin yanına o vaxt çoxları getsə də, bu görüş onun üçün, özünün də etiraf etdiyi kimi, çox qiymətli olub: "Ona görə ki, o, Səməd Vurğun ailəsinin nümayəndəsidir.Bir də ona görə ki, Naxçıvan ağır şəraitdə idi, təyyarələrin gediş-gəlişi çox çətin idi. Görün, qadın yalnız mənə salam vermək, mənimlə görüşmək üçün gəlmişdir. Bu, məni həm sevindirdi, həm də bir daha təsdiq etdi ki, yaxşı insanlar, saf ürəkli insanlar bizim cəmiyyətimizdə çoxluq təşkil edir...

Mən bu faktı yüksək qiymətləndirməyimə görə xatırlayıram. Ona görə xatırlayıram ki, bu, Səməd Vurğun ailəsidir. Həmin görüşdə mən Səməd Vurğunu bir daha yaxından hiss etdim. Bunların hamısı bizi bir-birimizə mehriban, sadiq olmağa dəvət edir" [2, s.520-521].

Heydər Əliyev Aybəniz Vurğunqızının yüksək keyfiyyətə malik bu nəcib hərəkətindən digər insanların ibrət götürməsini də tövsiyə edir. O, şairin övladlarının ədəbiyyatımızın və mədəniyyətimizin inkişafında, eləcə də müstəqilliyimizin qazanılması sahəsində öz fəaliyyətlərini yüksək dəyərləndirməklə yanaşı, onların atalarından gələn genetik kodların (istedadın, cəsarətin, xeyirxahlığın, nəcibliyin) daşıyıcıları olduqlarını xatırlatmağı da lazım bilir.

Heydər Əliyev S.Vurğun haqqındakı çıxışlarında, göründüyü kimi, bir sıra vacib məqamlara – ustad şairin Vətən sevgisi, ədəbi və ictimai nüfuzu, şəxsiyyətinin bütövlüyü və cəsarəti ilə müasirlərinə nümunə olduğuna, respublikamızda elmin, şeir dilimizin inkişafı sahəsindəki əvəzsiz xidmətlərinə və bir sıra başqa məsələlərə toxunur. Bunlarla yanaşı o, iki məqamı – S.Vurğunun yaradıcılığına tarixilik mövqeyindən yanaşılmasının, əsərlərinin yarandığı dövrün kontekstində öyrənilməsinin zəruriliyini və onların aktuallığını qoruyub saxladığını xüsusi vurğulayır ki, bu da səbəbsiz deyil.

Şairin yaradıcılığına ənənəvi Şərq dəyərləri kontekstində yanaşan və Şərqdə şairin həmişə ən yüksək hörmətə layiq olduğunu xatırladan H.Əliyev xalqın hörmətini və tükənməz sevgisini qazanmış S.Vurğunun da "öz dövrünün şairlərinin şairi" olduğunu diqqətə çatdırır. O bu bir cümlə ilə S.Vurğunun əsərlərinin yarandığı dövrün kontekstində (həm siyasi-ideoloji, həm mənəvi-əxlaqi, həm ədəbi-nəzəri, həm də digər aspektlərdən), tarixilik mövqeyindən öyrənilməsinin, öz ifadəsilə desək, həm "dövrün hökmü"nün şairin əsərlərinə təsirinin (S.Vurğun öz dövrünün şairidir), həm də onun ədəbiyyatımızın tarixindəki yeri və mövqeyinin (S.Vurğun öz dövrünün şairlərinin şairidir) nəzərə alınmasının zəruriliyini ciddi bir yanaşma meyarı kimi ortaya qoyur. Bəzi qüvvələr tərəfindən (H.Əliyev onları "nadürüstlər", "nankorlar" adlandırır və "tariximizi, millətimizi, xalqımızı bələlərindən qorumağ"a çağırır) milli-mənəvi dəyərlərimizin məqsədli olaraq aşağılandığı, vətənimizə və xalqımıza ləyaqətlə xidmət etmiş bir çox ziyalımızın, eləcə də S.Vurğun irsi və şəxsiyyətinin qərəzli dəyərləndirildiyi, daha doğrusu, dəyərsizləşdirilməyə cəhd edildiyi son illərdə H.Əliyevin bu mövqeyi həm şairə qarşı hücumların qarşısına çəkilən dayanıqlı bir sədd–sipər, həm də əsərlərinə obyektiv elmi yanaşma meyarıdır. Bu eləcə də bütövlükdə bədii ədəbiyyatın mühit və müəllif – sənətkar və zaman kontekstində öyrənilməsinin aktuallığına istiqamətlənmiş konstruktiv bir pozisiyadır. Başqa sözlə, təkcə vurğunşünaslığın yox, bütövlükdə ədəbiyyatşünaslığın problemidir. Çünki, unikal mədəniyyət hadisəsi, polifonik konstruksiya və çox mürəkkəb yaradıcılıq aktı olan ədəbi

mətnin – bədii əsərin yaranma prosesi bütün parametrlər, eləcə də iştirakçı komponent və faktorlar nəzərə alınaraq öyrənilməzsə, obyektiv nəticələrə gəlmək, təbii ki, mümkün deyil.

Əsərin yaranmasında iştirak edən komponentlərin fəallıq dərəcəsinin müşahidəsi H.Əliyevin mətnin və müəllifin anlaşılmasında dövrün nəzərə alınmasının zəruriliyi ilə bağlı irəli sürdüyü konsepsiyanın nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyir.

Doğrudur, bədii əsəri müəllif qələmə alır – yazır, sonunda imzasını qoyur, müəllif başlanğıcı və müəlliflik hüququ problemi də onun imzası ilə müəyyənləşir. Amma, unutmaq olmaz ki, müəllifin özünü "yaradan", onu formalaşdıran, imzasına "möhür vuran və təsdiqləyən" də mühitdir – dövrdür – zamandır. Bir qədər də dəqiq desək, əsərin qələmə alanı–yazanı müəllifdirsə, müəllifi (dolayısı ilə mətni – əsəri də) yaradan da mühitdir.

Əksər hallarda, eyni mətni–əsəri də hər bir dövr, belə demək mümkünsə, "öz dilində" oxuya və "oxutdura", eləcə də unutdura bilir. Nümunələr kifayət qədərdir. Bir sözlə, özünə və sözünə (əsərlərinə) dövrün "möhür" vurmadığı sənətkar yoxdur və ola da bilməz. Bu mənada hər bir yazıçı, o sıradan S.Vurğun da öz dövrünün yetirməsidir. H.Əliyev də S.Vurğunun yaşadığı, yazıb-yaratdığı dövrə diqqət yönəltməklə, ilk növbədə bu məqamı qabardır: "Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir...

Şərqdə həmişə şeir böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, o poemaları yazıbdır" [3, s.139].

Ümummilli lider əvvəlki zamanlarda yaşayan hər bir şairin "öz dövrünün aşiqi" olduğunu, başqa sözlə öz dövrünün ədəbiyyat qarşısında qoyduğu vəzifələri yerinə yetirdiyini xatırladaraq, S.Vurğunun da, sələfləri kimi, öz dövrünün ədəbiyyatını yaratdığını diqqətə çatdırır, ad çəkmədən, acı da olsa, bir həqiqəti – N.Gəncəvi kimi, sonrakı sənətkarların da "qulaqlarını qulluq halqası"ndan çıxara bilmədiklərini və əslində bunun, yəni, "məcməi-nar içrə olub yanmamağ"ın mümkünsüzlüyünü də diqqətə çatdırır.

Burada inkaredilməz bir gerçək də var: döğrudur, hər bir sənətkar öz dövrünün yetirməsi, belə demək mümkünsə, məhsuludur. Amma, bu heç də hər bir yeni dövrün sənətkarı ədəbiyyatın bütün komponentlərini (dili, ədəbi ənənələri, poetik fiqurları və s.) özü, tamamilə yenidən yaradır – mənasında başa düşülməməlidir. Bu, hər bir sənətkarın yazdığı əsərlərin mövzusunu da, yalnız yaşadığı dövrdən götürməlidir mənasında da anlaşılmamalıdır. Çünki, sonrakı mətnlər əvvəlkilərin davamı və belə demək mümkünsə, tamamı olduğu kimi, hər bir yeni dövrün sənətkarı da əvvəlkilərin yaratdıqları ənənələrin yeni məzmunda davamçıları, ədəbi varisləri, xələfləridir. Bu məntiqlə bu günün şairi, yazıçısı həm də sabahın sənətkarıdır. Bu səbəbdən də ədəbi şəxsiyyətlərə ikili standartlarla yanaşmağın, heç bir şairi, eləcə də S.Vurğunu qınamağın düzgün olmadığını, əksinə, çox mürəkkəb və ziddiyətli bir dövrdə şəxsi həyatlarını təhlükə altında qoyaraq, xalqın maariflənməsinə və tərəqqisinə xidmət edən əsərlər yaza bildiklərinə görə onlara (və təbii ki, S.Vurğuna da) minnətdar olmağı gərəkli sayır. Bugünkü Azərbaycanı obrazlı şəkildə əzəmətli bir binaya bənzədən və onu kərpic-kərpic ucaldanların indiyə qədər yaşamış, yazıb-yaratmış insanlar olduğunu xatırladan Heydər Əliyev bu günkü müstəqilliyimizə görə həmin şəxslərə, eləcə də, öz ifadəsilə desək, "onların ən görkəmlisi S.Vurğuna minnətdar olmağ"ın vacibliyini diqqətə çatdırır.

H.Əliyev çıxışlarında S.Vurğunun yazıb-yaratdığı dövrün çox ziddiyyətli, hətta qorxulu olduğuna diqqət yönəldir və daim təqib və təzyiqlərə məruz qalan bu vətənpərvər, cəsarətli şairin o mürəkkəb şəraitdə milli-mənəvi dəyərləri ehtiva edən əsərlər yaza, xalqına ləyaqətlə xidmət edə bilməsini hər bir sənətkara nəsib olmayan keyfiyət, cəsarət hesab edir. Belə bir mühitdə, çərçivədə yazıb-yaratmaq məcburiyyətində qalan S.Vurğunun "Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstərdiyini, həm milli ədəbiyyatımızı və mədəniyyətimizi, həm də dünya ədəbiyyatını zənginləşdirdi-

yini, çox parlaq və nadir istedadı, eləcə də gərgin əməyinin Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirdiyini, onun həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olduğunu", bununla yanaşı, xalqımızın Səməd Vurğunun dahi şair, dramaturq, yazıçı, filosof, alim olduğunu bir daha dərk etdiyini, onun çox dəyərli irs qoyub getdiyini diqqətə çatdırır. Əlavə edir ki, Səməd Vurğunun əsərləri "...bu gün də, müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları daha da coşdurur, daha da vətənpərvər edir, onlara vətəni, milləti, torpağı sevməyi öyrədir" [3, s.138].

## Nəticə / *Conclusion*

Düşünürük ki, S.Vurğun yaradıcılığı və şəxsiyyətini bundan konstruktiv və obyektiv dəyərləndirmək mümkün deyil. Ümummilli liderin bu fikirləri S.Vurğunun yaradıcılığı və şəxsiyyətinə verilən yüksək dəyər olmaqla yanaşı, ustad şairin timsalında, bütün hallarda sənətkar və zaman əlaqələrinin, mətnin yaranmasında və müəllifin bir yaradıcı şəxsiyyət kimi formalaşmasında mühit (dövr) faktorunun nəzərə alınmasının zəruriliyini də diqqətə çatdırır. Müvafiq terminlərlə ifadə etmiş olsaq, əsərin məzmununun doğru-dürüst anlaşılmasına komparativ, bioqrafik və tekstoloji metodların tətbiqini tələb edir. Əslində bu meyar, təkcə S.Vurğunun deyil, onunla eyni dövrdə yaşamış sənətkarların (elə bütün dövrlərdə yazıb-yaratmış şair və yazıçıların da) yaradıcılığına yanaşmada da nəzərə alınmalıdır. Başqa sözlə, bu meyar, təkcə vurğunşünaslığın deyil, bütövlükdə ədəbiyyatşünaslığın – filoloji elmimizin ədəbiyyatı nəzəri-metodoloji dəyərləndirmənin təməl prinsipinə çevrilməlidir.

## Ədəbiyyat /*References*


1. Əliyev, H. Böyük Azərbaycan şairi və dramaturqu Səməd Vurğunun "Fərhad və Şirin" pyesinin yeni quruluşda tamaşasına baxdıqdan sonra yaradıcı kollektivlə görüşdə çıxışı. 7 iyun 1997. H.Əliyev. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Elektron sənədlər toplusu, s.348, http://heydaraliyev.preslib.az/
2. Əliyev, H. Yazıçı Yusif Səmədoğlunun 60 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxışı. 19 dekabr 1995. H.Əliyev. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Elektron sənədlər toplusu, s.519, http://heydaraliyev.preslib.az/
3. Əliyev, H.. Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədə nitqi. 7 mart 1997. H.Əliyev. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Elektron sənədlər toplusu, s.140, http://heydaraliyev.preslib.az/
4. Quliyev, Q. "Mən bir uşaq, sən bir ana" – bədii fikirdə Vətən mövzusu. "Azərbaycan" j., 2011, №2.

# Гейдар Алиев и Самед Вургун

***Гейдар Алиев: Азербайджанский народ гордится и далее будет гордиться произведениями Самеда Вургуна, с начала и до конца…***

**Аслан Салманов**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: aslan_salmansoy@mail.ru

**Резюме.** В статье изучены извлечения из многочисленных выступлений выдающегося политического деятеля Гейдара Алиева об одном из творцов нашей новой национальной поэзии Самеде Вургуне, которого он называл «Одной из величайших личностей, славным источником гордости нашей нации». Автор приводит оригинальные рассуждения Гейдара Алиева о Самеде Вургуне, исходя из всех параметров личности и многогранного творчества, анализа эпохи и его богатого наследия как в политико-идеологическом, так и филологическом аспекте, среды и поэтического искусства мастера, литературного и общественного авторитета, заслуг в развитии нашей культуры и науки, цельности его личности, сведений о детях и семье. Приоритетным в этих выступлениях является роль и значение актуальности сохранившегося наследия поэта в современную эпоху – периода независимости, направленности воспитания народа, особенно молодого поколения, в духе национальных ценностей, в том числе духе азербайджанства.

В своих выступлениях Гейдар Алиев приводит объективные комментарии по теме «художник и время», т.е. по связям среда – автор – текст и даёт пояснения насчёт некоторых моментов их искажения со стороны неких сил в последние годы. В рассуждениях Гейдара Алиева о неоценимых заслугах Самеда Вургуна в истории и судьбе нашего народа, высказывается подтверждение факта, что, несмотря на трудные и опасные годы при жизни, мастер, неустанно трудясь для развития науки республики, с честью служил нашему народу – созданием имеющих исключительное значение произведений, отражающих национально-духовные ценности, и сегодня сохранивших актуальность и содержащих опорные принципы развития государственности.

**Ключевые слова:** Гейдар Алиев, Самед Вургун, автор, среда, компаративный, биографический